


Rusiyanın Yekaterinburq şəhərinin 15 yaşlı sakini abortdan sonra dünyasını dəyişib. Hadisə yerli "Harmoniya" klinikasında baş verib. Bu barədə "Arqumentı i Faktı" məlumat yayıb. Klinikanın tibbi sənədlərinə əsasən əməliyyat uğurla keçib, lakin bundan sonra fəsadlar ortaya çıxıb.

Qızı abort etdirmək üçün klinikaya anasının gətirdiyi bildirilir. Əməliyyat narkoz altında aparılıb. Əməliyyatçılar qızın xəstənin əməliyyat zamanı yoxsa ondan sonra öldüyünü araşdırır.

Faktla bağlı araşdırma aparılır. Həddi-buluğa çatmamış şəxsin hamiləliyi və onun yaşadığı ailə şraiti vəziyyəti bir qədər də qəlizləşdirir.